

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**


# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 7 (197) 321
İyun-iyul 2024-cü il

**Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti**


# Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib

***İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana, Qarabağa “Xoş gəlmisiniz!”.

Türk Dövlətləri Təşkilatının ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsümü dəstəklədiyiniz və dəvətimizi qəbul edərək Şuşa şəhərinə gəldiyiniz üçün təşəkkür edirəm.

Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır.

Keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır.

Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu döyüş meydanında 300-dən çox şəhər və kəndi Ermənistanın təxminən 30 il davam edən işğalından azad etmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuş və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatmışdır. Hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd edilir.







Sərəncamımla 2021-ci ildə Şuşa şəhəri “Azərbaycanın mədəniyyət paytaxtı” elan olundu. Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın təməlinin qoyulmasının 270-ci ildönümü ilə əlaqədar 2022-ci il Azərbaycanda “Şuşa İli” elan edilmişdir. TÜRKSOY tərəfindən Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı”, ICESCO tərəfindən isə 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunmuşdur.

Qardaşım Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsi də 2021-ci ildə məhz Şuşada imzalanmışdır.

Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq.

Hörmətli həmkarlar, bu gün Qarabağ və Şərqi Zəngəzurda “Böyük Qayıdış” Proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə-yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır.

“Böyük Qayıdış” Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər.

Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm.

Əziz dostlar, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür.

Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir.

Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımalarını nəzərə alaraq, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. İnanıram ki, Fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaqdır.

Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir.

Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsi də mühüm təşəbbüslərdən biridir.

Bildiyiniz kimi, bu il Azərbaycan COP29 konfransına ev sahibliyi edəcək. Fürsətdən istifadə edərək sizin hər birinizi bir daha COP29-a dəvət edirəm. COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək.

Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda, Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir.

***

**Sonra digər dövlət və hökumət başçıları çıxış ediblər.**

***

**Zirvə görüşünə yekun vuran Prezident İlham Əliyev dedi:**

- Əziz dostlar.

Bu gün biz Türk dünyasının birliyini bir daha təsdiqlədik. Birgə həyata keçirdiyimiz layihələrin icrasına yeni təkan verdik.

Noyabrda Bakıda keçiriləcək COP29 ilə əlaqədar iqlim dəyişikliyinin mənfi fəsadları ilə mübarizədə birgə fəaliyyət göstərməyin vacibliyini vurğuladıq.

Tarixən dünya sivilizasiyasına böyük töhfələr vermiş türk sivilizasiyasının tədqiq və təşviq edilməsi, Türk Dövlətləri Təşkilatının digər beynəlxalq təsisatlarla əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini bir daha qeyd etdik.

Əminəm ki, bugünkü müzakirələr, qəbul etdiyimiz qərarlar Türk Dövlətləri Təşkilatının gücləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək, hazırda Türk Dövlətləri Təşkilatına sədrlik edən Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Əminəm ki, qarşıdan gələn Bişkek Zirvə görüşündə səmərəli və nəticəyönümlü müzakirələrimizi davam etdirəcəyik.

İndi isə sizi Qarabağ Bəyannaməsini imzalamağa dəvət edirəm.

***

Daha sonra Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimi olub.

Sonda birgə foto çəkdirilib.

# Azərbaycan Prezidenti İlham Əliyev Pakistana dövlət səfərinə gedib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Pakistan İslam Respublikasına dövlət səfərinə gəlib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinə xüsusi hörmət əlaməti olaraq dövlətimizin başçısının təyyarəsini Pakistanın hava məkanında bu ölkənin Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri qarşılayıb və enənədək müşayiət edib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentinin şərəfinə toplardan yaylım atəşi açılıb.

Prezident İlham Əliyevi Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif qarşılayıb.

Sonra Azərbaycan Prezidenti və Pakistanın Baş naziri görüşüblər.

Səfər çərçivəsində Prezident İlham Əliyev İslamabadda milli abidəni ziyarət edib.

Sonra İslamabadda Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

İslamabadda Azərbaycan Prezidenti İlham Əliyevin Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə məhdud tərkibdə görüşü keçirilib.







Sonra İslamabadda Azərbaycan Prezidentinin və Pakistanın Baş nazirinin geniş tərkibdə görüşü olub.

Eyni zamanda İslamabadda Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi baş tutub.

Sonra Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

Rəsmi nahardan sonra Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatlarla çıxış ediblər və Pakistan Prezidentinin adından Azərbaycan Prezidentinin şərəfinə dövlət ziyafəti verilib.

Sonra İslamabadda Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olub.

Daha sonra İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda hərbi sərgi ilə tanışlıq olub.

Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri başa çatıb.

# Şuşada 2-ci Qlobal Media Forumu keçirilib

## *Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib*

***İyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib və sualları cavablandırıb.

Moderator - "Euronews" televiziyasının aparıcısı və prodüseri xanım Rebekka Maklaflin-İstham: Sizi görməyə çox şadam, cənab Prezident. Tədbirimizə qatıldığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Xanımlar və cənablar, mənim üçün böyük şərəfdir ki, bu cür çox mötəbər 2-ci Şuşa Qlobal Media Forumunda iştirak edirəm. Biz buraya səyahət edərkən çox gözəl, səfalı təbiətin, möhtəşəm tunellərin şahidi olduq və möhtərəm cənab Prezident, Sizə bu işdə uğurlar arzu edirəm. Mən şadam ki, bugünkü tədbirimiz Zati-aliləri, cənab İlham Əliyevin himayəsi altında keçirilir.

Mənim adım Rebekka Maklaflin-İsthamdır, mən "Euronews" televiziya kanalının aparıcısı və prodüseriyəm. Şadam ki, bu gün mən bu tədbirin moderatoru olacağam.

Bu gün çox maraqlı gündəliyimiz var. Bilirəm ki, hər biriniz Zati-aliləri İlham Əliyevlə sual-cavab hissəsini səbirsizliklə gözləyirsiniz. Bizim böyük iştirakçı siyahımız var və cənab Prezidentə təşəkkür edirik ki, o, bizə kifayət qədər vaxt ayırıbdır. Mən çox xahiş edirəm suallar qısa olsun ki, biz vaxtımıza qənaət edə bilək. Xahiş edirəm ki, özünüzü təqdim edəsiniz və təmsil etdiyiniz təşkilatın da adını çəkəsiniz.



Bu gün burada əllidən artıq ölkəni təmsil edən nümayəndələr var. Biz Şuşada yalan məlumatların ifşasına həsr edilmiş bir tədbirdə iştirak edirik. Bu, dezinformasiya ilə mübarizə baxımından çox vacib bir vəzifədir. Bu gün, əlbəttə ki, informasiyanın inkişafı bizim sahə üçün çox əhəmiyyətlidir. Amma burada, əlbəttə ki, mənfi hallar da var. Burada media sektorunu təmsil edən nümayəndələrimiz var, onlar da öz əllərindən gələni edirlər ki, cəmiyyəti məlumatlandırsınlar. Əlbəttə ki, bu baxımdan bu gün burada oturan hər bir şəxs öz peşəsinə böyük sədaqətlə yanaşır.

Mövzuya gəldikdə, biz dörd əsas məqamı qeyd etməliyik: burada dezinformasiyanın təsiri, digər tərəfdən siyasət və təşəbbüslər və əlbəttə ki, Zati-alilərinin tövsiyəsi olacaqdır. Bu baxımdan əlbəttə ki, müsbət və mənfi təsirlərdən danışacağıq. Süni intellektin, eyni zamanda, media sahəsində məlumatlandırma və iqlim fəaliyyəti, - əlbəttə ki, COP29-la bağlı da biz səbirsizliklə gözləyirik bu tədbiri -, iqlim dəyişikliyi və ya keçid məsələsi də müzakirə mövzusu olacaqdır. Tədbirimizin üçüncü günündə də Frank Keyn tərəfindən "Yaşıl dünya naminə həmrəylik" mövzusunda təqdimat olacaqdır. O, sırf COP29 mövzusuna həsr ediləcəkdir və orada Elnur Soltanov tərəfindən də təqdimat keçiriləcək.

***

Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev forum iştirakçılarının suallarını cavablandırıb.

***

Qeyd edək ki, 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır.

Forum çərçivəsində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında dörd panel sessiya təşkil olunacaq. Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi aparacaqlar.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat veriləcək.

Xatırladaq ki, "4-cü Sənaye inqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumu ötən il iyulun 21-23-də keçirilib.

# Ulu Öndər Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişi Azərbaycanın yeni inkişaf dövrünün başlanğıc nöqtəsidir





**1969-cu ilin 14 iyulunda Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə hakimiyyətə gəlməsi respublikamızın müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi tarixə həkk olunub.**

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Bu dövrdə Ümummilli Liderin milli-mədəni inkişaf və tarixi yaddaşımızın bərpası istiqamətind? gördüyü misilsiz işlər xalqımızda milli ruhun canlanmasını, özünüdərki və soykökə qayıdışı təmin etdi.

Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, Ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, sivilizasiyaların qovşağında Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar kimi tanıdılması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələridir.

Ümummilli Lider sovet rejimində bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürüb və cəmiyyəti bütün sahələr üzrə gələcək və mənəvi iqtisadi yüksəlişlərə ruhlandırıb.

1969-1982-ci illərdə Azərbaycanın sürətli inkişafı, adət-ənənəsinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanması bugünkü müstəqilliyimizin təməlinin qoyulmasında əvəzsiz rol oynayıb. Azərbaycanın sənaye-aqrar respublikaya çevrilməsi də bu istiqamətdə mühüm rola malikdir. Məhz həmin dövrdə Ulu Öndərin dövlət idarəçiliyindəki xüsusi qabiliyyəti, uzaqgörən siyasəti və strateji təfəkkürü sayəsində Azərbaycan əsrə bərabər inkişaf yolu qət edərək keçmiş ittifaqın qabaqcıl respublikaları sırasına çıxdı. Bu illər tariximizdə yüksəliş dövrü kimi əks olunub. Siyasi, iqtisadi, sosial, mədəni sahələrdə qazanılan uğurlar xalqımızın milli mənlik şüurunun oyanışına, dövlətçilik təfəkkürünün formalaşmasına güclü təkan verdi. Çətinliklərə baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin, möhkəm təməl və hüquqi baza yaradıldı.

Ümummilli Liderin respublikaya rəhbərlik etdiyi ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm şəkildə qeyd olunmasının ənənə halına çevrilməsi milli ruhun yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının reallaşması üçün zəmin yaratmışdı.

Ulu Öndər sovet rejimində milli ruhun tamamilə sıxışdırılmasına nəinki yol verməyib, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarıb. Heydər Əliyev idarəetmə fəsəfəsinin başlıca ideya -siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil edib.

Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində sovet rejimi altında Azərbaycan xalqı, əvvəlcə, siyasi və iqtisadi müstəqilliyinin bünövrəsini yaradıb, daha sonra isə müstəqil dövlətini qurmaq, qorumaq və yaşatmaq üçün tarixin yetirdiyi imkanı reallaşdırıb. Bu gün sürətli inkişafı, müstəqil xarici siyasəti ilə dünya birliyinin layiqli üzvünə çevrilmiş müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının bariz nişanəsidir.

Bu gün beynəlxalq arenada özünə layiqli yer tutan, inkişaf etmiş ölkələrlə bir sırada adı çəkilən müasir müstəqil Azərbaycan Ümummmilli Lider Heydər Əliyevin xalqımıza əmanətidir. Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizinin şərəfli adının daha yüksək yerlərdən eşidilməsi üçün bütün var-qüvvəsindən istifadə edir.

***

Ümummilli Lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycana ilk dəfə hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyinin əsasını qoyub. Həmin əlamətdar gün respublikamızın yeni inkişaf dövrünün başlanğıc nöqtəsidir. Bu münasibətlə Xızı rayonunda tədbir keçirilib. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birgə Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini dərin ehtiramla ziyarət edib, önünə tər gül dəstələri düzüblər.

*"XIZI", R.M.*
*14 iyul 2024-cü il*

# Şuşa Bəyannaməsinin imzalanmasından 3 il ötür

*"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanmasından 3 il ötür.*

Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya çatdıran bir mesajdır. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanan Bəyannamə iki qardaş ölkənin tarixi münasibətlərinin yeni mərhələsinin əsasını qoydu.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edir.

Bəyannamə Türkiyə və Azərbaycan arasındakı müttəfiqlik münasibətlərinin bütün əməkdaşlıq sahələrini əhatə edir. Ölkələrimiz arasındakı müttəfiqlik əlaqələri siyasət, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edir.

Şuşa Bəyannaməsi əhatəli sülhə və inteqrasiyaya yol açır və bölgədə inteqrasiya proseslərini stimullaşdırır, bununla da iki ölkə arasında əməkdaşlığın yeni perspektivləri yaranır.

Ölkələrimizin iqtisadi qüdrətini artıran Şuşa Bəyannaməsi əraziyə yeni sərmayə qoyuluşu prosesini stimullaşdıracaqdır. Regionun artan investisiya potensialı yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olacaqdır. Şuşa və Şuşa ətrafının gözəl turizm imkanları açılacaq.

Bəyannamədə nəzərdə tutulan hərbi əməkdaşlıq, regional əhəmiyyət daşıyan iqtisadi layihələr və bütün digər müstəviləri əhatə edən təşəbbüslər Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırır.

Bəyannamə ölkələrimiz arasında münasibətlərin gələcəyini müəyyən edir və əlaqələri ən yüksək səviyyəyə qaldırır. Bəyannamənin icrası keyfiyyətcə daha yüksək işbirliyinin təminatıdır.

Siyasi ənənələrə ehtiram əlaməti olaraq Bəyannamədə xalqlarımızın böyük liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında isə Ulu Öndər Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir".

44 günlük Vətən müharibəsində olduğu kimi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası prosesində də Azərbaycanla Türkiyə arasında sıx əməkdaşlıq mövcuddur.

Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi əhəmiyyətə malik nəqliyyat layihəsidir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır.Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi reallığa çevrilir. Bəyannamədə əksini tapan və iqtisadi inkişafa təkan verəcək məsələlərdən biri də ölkələrin qarşılıqlı surətdə investisiya qoyuluşlarını həyata keçirməsindən, habelə bu sahədə strateji məqsədlərin olmasından ibarətdir. Qarşılıqlı investisiya qoyuluşları ölkələrin iqtisadiyyatının sürətli inkişaf etməsinə, zəruri sahələrin genişləndirilməsinə, strateji sahələrin daha da təkmilləşdirilməsinə şərait yaradır, inteqrasiyanı dərinləşdirir.

Müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin Bəyannamədə əks olunması tarixi nailiyyətdir. Ölkələr bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcək. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artıracaqdır. İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatları böyük rol oynayıblar. Azərbaycan bu prosesdə istehsal mərkəzi kimi inkişaf edəcəkdir. İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəlmişdir.

Şuşa Bəyannaməsi imzalanarkən Azərbaycan Prezidenti İlham Əliyev bu siyasi aktın tarixi əhəmiyyətini vurğulayaraq deyib: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır."

Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Bu da, Ermənistandakı revanşist qüvvələrə mühüm mesajdır.

Bəyannamədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşməsinə, regional inteqrasiyaya və təhlükəsizliyə xidmət edir, eyni zamanda, Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.

Sənədin ortaya qoyduğu mühüm məsələlərdən biri də xaricdə yaşayan türk və Azərbaycan icmaları arasında informasiya mübadiləsini artırmaq və diplomatik səyləri birləşdirməkdir. Beynəlxalq aləmdə daha səmərəli fəaliyyət göstərmək istiqamətində media platforması və diaspor sferasında birgə, qarşılıqlı əlaqələrin genişləndirilməsinə zərurət yaranıb. Məhz bu istiqamətdə gələcəkdə genişmiqyaslı işlər aparılması üçün hər iki ölkənin diasporları arasında ikitərəfli əməkdaşlığın bütün parametrlər üzrə inkişaf etdirilməsi, birgə media platforması əsasında ölkələrin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya, həmçinin diplomatiya istiqamətində ikitərəfli əlaqələrin genişləndirilməsi, strateji məsələlər üzrə birgə qərarların qəbul edilməsi və icra edilməsi, qarşılıqlı maraq doğuran bütün məsələlər üzrə həmrəyliyin təmin edilməsi kimi vacib olan məsələlər bəyannamədə öz əksini tapıb.

*"XIZI"*

# Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Xızı rayonunda vətəndaşları qəbul edib





**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iyunun 21-də Xızı rayonunda vətəndaşları qəbul edib. Qəbulda Xızı və Siyəzən rayonlarının sakinləri iştirak ediblər.**

Qəbuldan əvvəl Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov və Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar.

Vətəndaşların qəbulu zamanı məşğulluq, əlillik, mənzil təminatı, ünvanlı sosial yardım və digər məsələlərlə bağlı müraciətlər dinlənilib. Müraciət edənlər arasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da yer alıb.

Müraciətlərin hər biri fərdi qaydada araşdırılaraq, nəticəsinə uyğun tədbirlər görülüb.

Qanunvericiliyə uyğun olaraq sorğu xarakteri daşıyan müraciətlərlə bağlı ətraflı izahatlar verilib.

Müraciətlər əsasında vətəndaşların aktiv məşğulluq proqramlarına, eləcə də özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyat aparılıb.

***"XIZI", 21 iyun 2024-cü il***

# Xızı rayonunda Özünüməşğulluq proqramı çərçivəsində qurulmuş təsərrüfatlara baxış olub

**Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, ölkəmizdə Özünüməşğulluq proqramı həyata keçirilir.**





İyunun 21-də Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov və Azərbaycan Respublikası Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Xızı rayon sakinləri - şəhid anası Səyyarə Verdiyeva və Əfqan Məmmədov üçün özünüməşğulluq çərçivəsində qurulmuş kiçik təsərrüfatlara baxış keçiriblər.

Özünüməşğulluq proqramı əsasında verilmiş aktivlər əsasında maldarlıq üzrə öz təsərrüfatlarını quran Səyyarə Verdiyeva və Əfqan Məmmədov işsiz şəxslərə kiçik bizneslərini yaratmaq üçün göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar qurduqları təsərrüfatlarını daha da genişləndirmək üçün səy göstərəcəklərini bildiriblər.

Alınan məlumata görə, Xızı rayonunda 209 nəfər işsiz və işaxtaran vətəndaş özünüməşğulluq proqramına cəlb edilərək, kiçik təsərrüfatlarını qurmaq üçün mal və materiallar formasında aktivlərlə təmin olunublar.

***"XIZI", R.M. 21 iyun 2024-cü il***

# Xızıda Aqrar Biznes Festivalı keçirilib





**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə iyunun 28-də Xızı rayonunda Aqrar Biznes Festivalı keçirilib.**

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi tərəfindən təşkil olunmuş festivalın keçirilməsində məqsəd aqrar sahənin innovativ əsaslarla inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsullarının istehsalçılarının innovasiyalara əlçatanlığının təmin edilməsi, innovativ həllərə əsaslanan texnoloji yeniliklərin təşviqi üzrə metodik və praktik dəstək xidmətlərinin həyata keçirilməsi və aqrar innovasiyaların təbliği və təşviqi olub.

Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında keçirilmiş festivalın açılış mərasimində Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov çıxış edib.

Aqrar Biznes Festivalının Xızı rayonunda təşkil edilməsinin əhəmiyyətindən danışan rayon rəhbəri bu tədbirin əsas etibarilə regionlarda yaşayan fermerlərin kənd təsərrüfatı məhsullarına və texnologiyalarına əlçatanlığının təmin edilməsi xarakterini daşıdığını vurğulamışdır.




Daha sonra festivalda sərgilənən innovativ həllərə əsaslanan kənd təsərrüfatı təyinatlı qurğu və avadanlıqlara, aqrar sahədə fəaliyyət göstərən texnika, gübrə, toxum, dərman, ting və digər kənd təsərrüfatı istehsalçısı olan kiçik və orta sahibkarların, şirkətlərin məhsullarına baxış keçirilmişdir.

Xızıda təşkil olunmuş Aqrar Biznes Festivalı əsl bayram əhval-ruhiyyəsi ilə qarşılanmış, böyük maraqla izlənmişdir.

***"XIZI", R.M. 28 iyun 2024-cü il***







**Bütün dünya müsəlmanlarının həmrəylik və qardaşlıq rəmzi olan Qurban bayramının ölkəmizdə dövlət səviyyəsində qeyd olunması xalqla dövlətin birliyini, Azərbaycan xalqının öz milli və dini ənənələrinə sadiq olduğunu dünyaya nümayiş etdirir.**

İslamın humanizm, bərabərlik və qardaşlıq prinsiplərinə sədaqətini həmişə nümayiş etdirmiş Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə belə Qurban bayramını özünün əziz günlərindən biri kimi qeyd etmişdir.

*Xızı rayonunun ictimaiyyəti mənəvi ruhi birlik, həmrəylik, humanizm və mərhəmət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə bütün dünya müsəlmanlarını təbrik edir, bol-bol ruzi-bərəkət, firavan həyat, sülh, əmin-amanlıq, xoşbəxt və işıqlı gələcək arzulayır.*

*Əziz müsəlmanlar, Həcc ziyarətinizi və kəsdiyiniz qurbanları Allah qəbul eləsin!*

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı yerlərdə vətəndaşlarla görüşüb

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 2024-cü ilin iyun və iyul aylari üçün təsdiq olunmuş qrafiklərə əsasən, iyunun 20-də Qasımkənd kəndində, iyulun 5-də Giləzi qəsəbəsində, iyulun 12-də Sitalçay kəndində, iyulun 17-də Şorabad qəsəbəsində və iyulun 19-da Xızı şəhərində vətəndaşlarla səyyar görüş-qəbullar keçirib.

Sakinlərlə keçirilən səyyar görüş-qəbullarda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovla yanaşı Xızı rayon prokuroru Xəyalə Aslanova, millət vəkili Müşfiq Məmmədli, Xızı RİHBA-nın məsul şəxsləri, eləcə də rayonda fəaliyyət göstərən müvafiq xidməti qurumların rəhbərləri də iştirak ediblər.

Qəbullarda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, onları narahat edən problemlər müzakirəyə çıxarılıb. Önəmli xarakter daşıyan məsələlər ətrafında fikir mübadilələri aparılıb. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov vətəndaşları narahat edən mövcud problemlərin həlli istiqamətində edilən müraciət, təklif və şikayətlərlə bağlı müvafiq qurumların rəhbərlərinə konkret tapşırıqlar verib.

***"XIZI", R.M.***


Xızı şəhəri


Qasımkənd kəndi



Qasımkənd kəndi


Xızı şəhəri


Giləzi qəsəbəsi


Giləzi qəsəbəsi


Şorabad qəsəbəsi


Sitalçay kəndi


Sitalçay kəndi


Şorabad qəsəbəsi

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin avqust ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Fındığan kəndi | Fındığan kənd İƏD üzrə nümayəndəliyin binası | 02.08.2024 | 11:00 |
| 2 | | Baxşılı kəndi | Baxşılı kənd İƏD üzrə nümayəndəliyin binası | 07.08.2024 | 11:00 |

# Xızıda 2 İyul - Azərbaycan Polisi Günü qeyd edilib





**Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub. Hər il Azərbaycan polisləri bu tarixi gündə özlərinin peşə bayramını qeyd edirlər.**

Azərbaycan polisi güclü maddi-texniki bazası, ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunması üzrə dəqiq təşkil edilmiş sistemi və kadr korpusu olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanıdır.

Azərbaycan Polisinin yaranmasının 106-cı ildönümü və 2 İyul - Azərbaycan Polisi Günü münasibətilə Xızı rayonunda tədbir keçirilib. Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, Xızı Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Faiq Hüseynov, Xızı rayon prokuroru Xəyalə Aslanova və Xızı Rayon Polis Şöbəsinin əməkdaşları iştirak ediblər.

Tədbir iştirakçıları, əvvəlcə, Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini böyük ehtiramla ziyarət edərək, önünə tər gül dəstələri düzüblər.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov əlamətdar gün münasibətilə polis işçilərini təbrik etdikdən sonra Azərbaycan Polisinin şərəfli tarixi yolundan, onun inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolundan Prezident İlham Əliyevin daxili işlər orqanlarına göstərdiyi diqqət və qayğıdan söhbət açıb.

Ümummilli Liderin Azərbaycana rəhbərlik dövrlərdə böyük uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı mühüm qərarlar verdiyini, bunun da Azərbaycan polisinin milli ruhda formalaşmasına zəmin yaratdığını bildirən Xəzər Aslanov daha sonra dövlətimizin başçısının həyata keçirdiyi hərtərəfli islahatlar nəticəsində daxili işlər orqanlarının da müasirləşməsi üçün bütün lazımi tədbirlərin görüldüyünü qeyd edib.

Çıxışda vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində davamlı inkişafda olan daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir və Azərbaycan polisi vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı çıxışının sonunda dövlətçiliyimizin möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması kimi müqəddəs işlərində polis işçilərinə uğurlar arzulayıb.

Tədbirdə Xızı Rayon Polis Şöbəsinin rəisi Faiq Hüseynov şəxsi heyəti peşə bayramı münasibətilə təbrik edərək, öz çıxışında milli maraqlarımızın qorunmasında, cinayətkarlığa qarşı mübarizədə Azərbaycan Polisinin əvəzsiz xidmətlərindən söhbət açıb.

***"XIZI", R.M.***
***02 iyul 2024-cü il***

***Xızı Rayon İcra Hakimiyyəti başçısının 01 iyul 2024-cü il tarixli 5-50/3-3-25/2024 saylı Sərəncamı ilə təsdiq edilmişdir.***

1 sentyabr 2024-cü il tarixdə keçiriləcək növbədənkənar Parlament seçkiləri ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Xızı rayonunda müəyyən edilmiş açıq və qapalı yerlər barədə

**MƏLUMAT**

| Sıra N-si | Şəhər, rayon | DSK-nın kodu | Açıq yer (ünvanı) | Tutumu | Qapalı yer (ünvanı) | Tutumu |
|---|---|---|---|---|---|---|
| 1 | **Xızı şəhəri** | 55 saylı Siyəzən-Quba-Xızı | Xızı şəhərinin girişində sağ tərəfdə C.Cabbarlı parkı ilə üzbəüz boş ərazi, Xızı şəhər tam orta məktəbin stadionu | 2000 nəfər<br>120 nəfər | Uşaq Gənclər İdman Şahmat Məktəbi | 70 nəfər |
| 2 | **Xızı rayonu Giləzi qəsəbəsi** | 55 saylı Siyəzən-Quba-Xızı | Giləzi qəsəbə futbol meydançası | 1000 nəfər | Giləzi qəsəbə Folklor klubu | 120 nəfər |
| 3 | **Xızı rayonu Altıağac qəsəbəsi** | 55 saylı Siyəzən-Quba-Xızı | Altıağac qəsəbə tam orta məktəbin qarşısındakı meydan | 500 nəfər | Altıağac qəsəbə tam orta məktəbi | 80 nəfər |
| 4 | **Xızı rayonu Sitalçay kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Sitalçay kənd tam orta məktəbin qarşısındakı meydan | 600 nəfər | Sitalçay kənd klubu | 60 nəfər |
| 5 | **Xızı rayonu Şorabad qəsəbəsi** | 55 saylı Siyəzən-Quba-Xızı | Şorabad qəsəbə futbol meydançası | 600 nəfər | Türkoba kənd ümumi orta məktəbi | 90 nəfər |
| 6 | **Xızı rayonu Qarabulaq kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Qarabulaq kənd ümumi orta məktəbin qarşısındakı meydan | 200 nəfər | ---- | ---- |
| 7 | **Xızı rayonu Yeni Yaşma kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Yeni Yaşma kənd tam orta məktəbin qarşısındakı meydan | 350 nəfər | ---- | ---- |
| 8 | **Xızı rayonu Tıxlı kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Tıxlı kənd ümumi orta məktəbin qarşısındakı meydan | 200 nəfər | Tıxlı kənd klubu | 30 nəfər |
| 9 | **Xızı rayonu Xələnc kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Xələnc kənd ümumi orta məktəbin qarşısındakı meydan | 200 nəfər | ---- | ---- |
| 10 | **Xızı rayonu Fındığan kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Fındığan kənd tam orta məktəbin qarşısındakı meydan | 250 nəfər | ---- | ---- |
| 11 | **Xızı rayonu Baxşılı kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Baxşılı kənd ümumi orta məktəbin qarşısındakı meydan | 150 nəfər | ---- | ---- |
| 12 | **Xızı rayonu Ağdərə kəndi** | 55 saylı Siyəzən-Quba-Xızı | Ağdərə kənd ümumi orta məktəbin qarşısındakı meydan | 100 nəfər | ---- | ---- |

# Azərbaycan Silahlı Qüvvələri qürurumuzdur

**1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə ilk nizami hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradıldı.**

Bu hadisə hərb tariximizin şərəfli səhifəsinə çevrildi. Müsəlman Korpusunun adının dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu kimi adlandırılması milli silahlı qüvvələrimizin yaradılması istiqamətində atılan önəmli addım oldu. Lakin 1920-ci ilin 20 aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkədə ordu quruculuğu prosesi dayandı. Milli Ordu quruculuğunda əsaslı dönüş yalnız Ümummilli Lider Heydər Əliyevin 1969-cildə hakimiyyətə gəlişindən sonra onun əvəzsiz xidmətləri və qətiyyəti sayəsində respublikada hərbi kadrların hazırlığı prosesi başlandı.

Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər ordu quruculuğu sahəsində köklü dəyişikliklər etdi.

Məhz Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü kimi elan olundu. Hər il bu tarix rəsmi dövlət bayramı kimi ölkəmizdə qeyd olunur.





Respublikamızın bütün bölgələrində olduğu kimi, Xızı rayonunda da 26 İyun - Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib. Xızı Rayon İcra Hakimiyyətinin, YAP Xızı rayon təşkilatının, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xızı rayon bölməsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzinin konfrans zalında keçirilmiş tədbirdə rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları, hərbçilər, Vətən müharibəsinin veteranları, ziyalılar, gənclər iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş ölməz Azərbaycan övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə olduğu kimi , silahlı qüvvələrin yaradılması, qüvvətləndirilməsi və qüdrətli ordu quruculuğu sahəsindəki əvəzsiz rolundan danışıb. Vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusunun Ulu Öndər Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmləndiyini, döyüş qabiliyyətini artırdığını vurğulayan A.Hüseynov Azərbaycan gənclərinin ölkəmizin ərazi bütövlüyü və azadlığı uğrunda gedən döyüşlərdə , xüsusilə 44 günlük Vətən Müharibəsində göstərdikləri şücaət və qəhrəmanlıqları yüksək qiymətləndirib.

Daha sonra tədbirdə Ümummilli Lider Heydər Əliyevin milli zabit kadrlarının hazırlanması üçün mükəmməl hərbi təhsil sistemi formalaşdıraraq ordunun madditexniki bazasının təkmilləşdirilməsi, maddi-texniki təminatının yaxşılaşdırılması, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması, döyüş ruhunun yüksəldilməsi və ordu quruculuğu ilə bağlı apardığı məqsədyönlü genişmiqyaslı islahatlar haqqında və İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qazandığı şanlı Zəfər barədə ətraflı çıxışlar dinlənilib.

Sonda Ulu Öndər Heydər Əliyevin siyasi həyatı və ordu quruculuğu sahəsindəki gərgin və yorulmaz fəaliyyətini əks etdirən genişformatlı videoçarx nümayiş olunub.

Otuz ilə yaxın bir vaxt ərzində Azərbaycanın ərazi bütövlüyünün pozulması və Ermənistanın işğalçı siyasətinin bütün dünyaya tanıdılması istiqamətində qətiyyətli və prinsipial iş aparan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ilin 27 sentyabrında əks hücüm əməliyyatı ilə başalayan 44 günlük Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq şanlı tarixi uğura imzasını həkk etdi. Qəhrəman hərbçilərimizin rəşadəti, şəhidlərimizin qanı-canı bahasına qazanılan bu Zəfərə bütün dünya şahidlik etdi.

Azərbaycan Ordusu bizim qürur mənbəyimizdir!

***"XIZI", R.M.***
***25 iyun 2024-cü il***

# Gənclər üçün "Oxu günü" təşkil edilib

**149 il bundan əvvəl görkəmli ziyalı, maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin böyük səyləri ilə işıq üzü görmüş ilk milli mətbu orqanı olan "Əkinçi" qəzeti xalqa söz və qələmlə xidmət etməyin mükəmməl nümunəsini göstərmişdir.**

1875-ci ilin 22 iyulunda "Əkinçi qəzetinin" nəşrə başlanması ilə milli mətbuatımızın əsası qoyuldu.

Azərbaycan Milli Mətbuatının yaranmasından 149 il ötür. Milli mətbuatın ölkəmizin ictimai-siyasi və mədəni həyatında xüsusi yeri, vətəndaş cəmiyyətinin inkişafında, milli-mənəvi dəyərlərin təbliğində, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsində misilsiz rolu var.

İyulun 22-də Milli Mətbuat və Jurnalistika günü ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyəti, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi və Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Xızı şəhərindəki Heydər Əliyev Parkında "Gənclər üçün oxu günü" adlı tədbir keçirilib. Mütaliə xarakteri daşıyan bu tədbirin keçirilməsində əsas məqsəd gənclərin mətbu orqanlarına - qəzet və jurnallara, həmçinin müxtəlif məzmunlu kitablara marağının artırılması və mütaliə vərdişlərinin inkişafına töhfə vermək olub.

Tədbirdə müxtəlif mövzulu ədəbiyyatların sərgisinə baxış keçirilib, milli mətbuatımızın və jurnalistikamızın keçdiyi tarixi proseslərdən danışılıb, müasir mətbuat barədə ətraflı müzakirələr aparılıb.





Daha sonra sərgilərə baxış keçirilib, Xızı rayon Mərkəzi kitabxanasının fonduna daxil olmuş yeni ədəbiyyatlar və gəncləri maraqlandıran kitablar haqqında tədbir iştirakçılarına məlumatlar verilib.

Açıq havada təşkil olunmuş mətbuat orqanlarından, kitablardan ibarət silsilə sərgilərlə böyük məmnunluqla tanış olan gənc oxucular belə tədbirlərin mütəmadi olaraq keçirilməsinin vacibliyini bildiriblər.

***"XIZI", R.M.***
***22 iyul 2024-cü il***

## Mədəniyyət xəbərləri

# Təbiəti sevmək və qorumaq lazımdır

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinə tabeli Xızı rayon Mərkəzi Kitabxana Sisteminin və Altıağac Milli Parkının birgə təşkilatçılığı ilə Altıağac Milli Parkında 2024-cü ilin ölkəmizdə "Yaşıl Dünya naminə Həmrəylik İli" elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası məqsədilə və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsinə həsr olunmuş "Təbiəti sevək və qoruyaq" adlı tədbir keçirilib.

İyulun 6-da parkın dekorativ sahəsində keçirilmiş tədbirdə Altıağac Milli Parkının işçiləri, Xızı rayon Mərkəzi Kitabxanasının və kitabxana filiallarının əməkdaşları və oxucular iştirak ediblər.



Giriş sözü ilə çıxış edən Altıağac Milli Parkının əməkdaşı Orxan Əzimov "Yaşıl Dünya naminə Həmrəylik İli" elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası istiqamətdə keçirilən tədbirlərdən, ölkədə yerləşən milli parkların yaranma tarixindən, onların fauna və florasından, su hövzələrindən danışıb və Altağac Milli Parkı haqqında geniş məlumat verib.

Xızı rayon Mərkəzi Kitabxana Sisteminin direktoru Ayşən Əliyeva tədbirdə çıxış edərək təbiətin qorunmasının və bu istiqamətdə kitabxanalarda maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyindən söhbət açıb.

Tədbirdə oxucuların ifasında təbiətə həsr olunmuş şeirlər səsləndirilib, onların yazdığı esseler dinlənilib.

Daha sonra tədbir iştirakçıları təbiətin qoynunda yazıçıların, şairlərin müxtəlif mövzulu kitablarından və oxucuların əl işlərindən ibarət sərgilərlə tanış olublar.

***"XIZI", R.M.***
***06 iyul 2024-cü il***

# "Milli mətbuatımız bizim böyük sərvətimizdir" adlı "dəyirmi masa" təşkil olunub

***C.Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzində 22 iyul - Milli Mətbuat və Jurnalistika Gününə həsr olunmuş "Milli mətbuatımız bizim böyük sərvətimizdir" adlı "dəyirmi masa" təşkil olunub.***



Rayonun mədəniyyət işçilərinin iştirakı ilə keçirilmiş tədbirdə çıxış edənlər Azərbaycan mətbuatının böyük və şərəfli yol keçməsindən bəhs edərək, 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin "Əkinçi" qəzetini nəşr etdirməklə xalqı maarifləndirmək, eləcə də baş verən mədəni və iqtisadi inkişafla tanış etməkdə böyük rol oynadığını vurğulayıblar.

Çıxışçılar "Əkinçi"nin cəmi 56 sayı işıq üzü görsə də, Azərbaycan milli mətbuatının yaranmasında və təşəkkül tapmasında əvəzsiz rola malik olmasından, xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük əhəmiyyət daşımasından söhbət açıblar.

***"XIZI", R.M.***
***22 iyul 2024-cü il***

# Azərbaycanda mətbuata dövlət qayğısı artır

**Görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən 1875-ci il iyulun 22-də Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi olmaqla həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. "Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub.**

***Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik."***

**Heydər Əliyev,**
**Ümummilli Lider**

***"Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir."***

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Lakin "Əkinçi"nin ömrü uzun sürməyib. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başlayıb və sonda qəzetin nəşrini dayandırıb. Buna baxmayaraq, o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

1875-ci ildən sonra çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Kaspi", "Həyat", "Füyuzat", "Dəbistan", "İrşad", "Tazə həyat", "Molla Nəsrəddin", "Tərəqqi", "Həqiqət", "Məktəb", "Açıq söz" kimi onlarla qəzet və jurnal ötən əsrin əvvəllərində anadilli mətbuatımızın sonrakı tarixini yaratdılar.

Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.




Göstərilən ali siyasi iradə nəticəsində ölkəmizdə mətbuat azadlığı prinsipləri bərqərar olmuş, habelə qəzet və jurnal bolluğu yaranmışdır. Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" hazırlanmış və qəbul olunmuşdur

Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə milli mətbuatımızın 125, 130, 135, 140 və 145 illik yubileyləri ölkə miqyasında geniş qeyd olunmuşdur. Bu yubileylər milli jurnalistikamızın tarixinə dəbdəbəli qiymət verilməsini və nəsillərin varisliyini qəbul etməklə, mediamızın sabahkı hüdudlarına aydın baxışı təmin etdi.

Yeni dövr milli mətbuatımızın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsini zərurətə çevirir. Hazırda media məkanında sürətli qloballaşma prosesi gedir. Bu baxımdan mövcud qanunvericiliyin təkmilləşdirilməsi zamanın tələbi idi. Bununla əlaqədar, Prezident İlham Əliyevin tapşırığı ilə media haqqında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Dövlətimizin başçısı İlham Əliyevin 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. Media Agentliyi ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, mütərəqqi layihələrin davamlı dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması həmişə dövlət başçısının diqqət mərkəzində olduğuna görə, KİV-lərə birdəfəlik yardımlar göstərilmiş, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri həyata keçirilmişdir. Həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar mətbuata və mətbuat işçilərinə dövlətin qayğısı kimi dəyərləndirilməlidir. 2022-ci ildə "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda edilmiş dəyişikliklərə əsasən Media Reyestrinə daxil edilmiş ən azı 5 il jurnalist işləyən və gənc ailənin üzvü olan şəxs, həmçinin ən azı 15 il jurnalist işləyən şəxs güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdir.

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 7 mart 2023-cü il tarixli Qanunla 2023-cü il yanvarın 1-dən media subyektlərinin məhz media ilə bağlı fəaliyyətdən əldə etdikləri gəlirləri, o cümlədən reklam gəlirləri, habelə media subyektlərinə Media Agentliyi tərəfindən verilən maddi yardımlar gəlir (mənfəət) və sadələşdirilmiş vergilərdən 3 il müddətinə azad edilib. Həmçinin, rəqabətə davamlı milli media məhsullarının istehsalının stimullaşdırılması məqsədilə media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi də həmin tarixdən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilib.Həmçinin, Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi də 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilib.

Kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir. Son illər həyata keçirilmiş islahatlar media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çevikliyin, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşımış, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.

Azad sözün cəmiyyətdə aşkarlıq və plüralizm prinsiplərinin bərqərar edilməsində, eləcə də demokratik inkişaf prosesində əsas meyarlardan biri olduğunu nəzərə alan Azərbaycan hakimiyyəti mətbuatın inkişafı üçün heç zaman qayğısını əsirgəmir. Bu gün Azərbaycanda ən müasir tələblərə və standartlara cavab verən medianın mövcudluğu və qazanılan uğurlar məhz bu reallığın nəticəsidir.

Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib, Azərbaycanın böyük Zəfərinin müjdəçisi olub. Hər zaman Azərbaycan həqiqətlərinin təbliği missiyasını uğurla həyata keçirən mətbuatımızın 44 günlük Vətən müharibəsinin gedişində ölkəmizin düşmən təbliğatına qarşı informasiya mübarizəsinə töhfələrini verdiyi kimi, postmüharibə dövründə də bu işi davam etdirməkdədir. Bu işlərin həyata keçirilməsində ən böyük missiyanı Ali Baş Komandanın özü reallaşdırdı. Onun Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumlarına geniş müsahibələri bu reallıqların dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Ölkə mediası bu gün də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin artıq tarixə qovuşmuş Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi hər bir fikrin, hər bir bəyanatın, işğaldan azad edilmiş ərazilərimizdəki vəziyyət barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır.

Bu günə qədər fasiləsiz davam edən informasiya müharibəsində mətbuat işçiləri öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqləniblər. Jurnalistlər 44 günlük Vətən müharibəsində cəbhə xəttində həm xəbər istehsalçısı, həm də səfərbərlik proqramı çərçivəsində əməliyyatlara cəlb olunublar. Qarabağ uğrunda döyüşlərdə fərqlənən və müxtəlif medallarla təltif edilənlər arasında jurnalistlərin də olması ölkəmizdə bu sahədə çalışanlara göstərilən böyük etimadın və diqqətin təzahürüdür.

***"XIZI"***

# Meşədə yanğın təhlükəsizliyi

**Meşə yanğınlarının böyük qismi insanların meşədə iş və istirahət zamanı yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Buna görə də meşədə yanğın təhlükəsizliyi qaydalarına əməl edin:**

- meşə və meşəətrafı sahələrdə yandırılan tonqal nəzarətsiz qalmamalıdır;
- tonqalı ağac altında, quru ot və kol-kos, ağac qırıntıları olan ərazidə qalamaq olmaz;
- tonqal ətrafındakı otlar 0,5-1 metr radiusda təmizlənməlidir;
- tonqal üçün xüsusi yer hazırlanmalı, yaxud köhnə tonqalın yerindən istifadə edilməlidir;
- küləkli havada tonqal qalamaq olmaz;
- ərazini tərk edən zaman tonqal tam söndürülməli, üzərinə su tökülməli və sonra üstü torpaqla örtülməlidir. Tonqalın tam söndüyünə əmin olduqdan sonra ərazini tərk edin;
- meşədə söndürülməmiş kibrit çöpünü və siqaret kötüyünü yerə atmaq olmaz;
- meşəyə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərlə islanmış material atmaq olmaz;
- meşəyə şüşə qab və şüşə qırıntıları atmaq olmaz. Onlar günəş şüasının təsirindən yanğına səbəb ola bilər;
- davamlı yanıq iyi, duman şəkilli tüstü, heyvan və həşəratların narahatlığı və eyni bir istiqamətə tələşli hərəkəti meşə yanğınlarının əsas əlamətləridir. Bu əlamətlərin və ya meşədə yanğının şahidi olmuşsunuzsa, dərhal olduğunuz yeri tərk edərək "112" qaynar xəttinə zəng edib yanğın haqqında məlumat verin;
-meşədə yanğın sizi yaxalamışsa, üzünüzü və başınızı üst geyimi ilə örtərək yanğın zonasından kənarlaşın və küləyin istiqamətinin əksinə doğru hərəkət edin;
- yanğın zonasından çıxa bilmirsinizsə, tezalışan materialdan olan paltarınızı əyninizdən çıxarın. Yaxınlıqdakı göl, nohur və ya digər su hövzəsinə girin və ya paltarınızı isladın. Üzünüzü çoxqatlı yaş parça sarğısı ilə örtün.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

***Emin Ramazanov,***
***FHN Sumqayıt Regional Mərkəzin Maarifləndirmə sektorunun müdiri***

Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
Whatsapp: (050) 965-88-89;
(070) 831-95-96
Elektron ünvan: xizi.r.m@mail.ru



Qəzet Ədliyyə Nazirliyinində qeydiyyata alınmışdır.
VÖEN: 7800023401
H/h:
33080019442400230124

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

Tiraj: 600
Sifariş: 1014
Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28